# Türkiyədə Azərbaycan ədəbiyyatının tədqiqatçıları ilə görüş təşkil olunub

**Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində qardaş ölkədə Azərbaycan ədəbiyyatı üzrə araşdırmaçılar, tanınmış ədəbiyyatşünas alimlər, Türk dünyası ədəbiyyatı üzrə fəaliyyət göstərən tədqiqatçılarla görüş keçirilib və onlarla gələcəkdə birgə əməkdaşlıq, ədəbiyyatımıza dair layihələr müzakirə edilib.**



Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrimizin inkişafından danışıb. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan mədəniyyətinin, tarixinin və dilinin təbliği işini genişləndirmək məqsədilə Türkiyədə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradıldığını qeyd edib.

O, görüşün əsas məqsədinin də Azərbaycan-Türkiyə mədəni-ədəbi əlaqələrinin daha da genişləndirilməsinə dəstək göstərmək, türk dünyasının ortaq dəyərləri, şifahi və yazılı abidələrimizin təbliği, Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrinin irslərinin öyrənilməsi, təbliği, ədəbiyyatımızın ortaq aktual problemləri və onların həlli yollarına dair layihələrin həyata keçirilməsi, klassik irsimizin Türkiyə türkcəsinə tərcüməsi, bu istiqamətdə ortaq layihələrin reallaşdırılması və s. dair əməkdaşlığın müzakirə edilməsi olduğunu bildirib.

S.Abbasov bu istiqamətdə görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verib və dünya mədəniyyətinə, ədəbiyyatına böyük töhfələr verən Azərbaycan, türk dünyası ədəbiyyatının tədqiqi və təbliğinin zəruriliyindən danışıb.

Görüşdə qeyd olunan mövzularda çıxışlar olub, alimlərin bu mövzuda fikirləri, təklifləri öyrənilib və gələcəkdə bu istiqamətdə aparılacaq işlərə dair yol xəritəsinin hazırlanması razılaşdırılıb.

Müzakirələrdə Azərbaycan-Türkiyə ədəbi əlaqələri, dünyaya böyük töhfələr vermiş ölkəmizin zəngin ədəbiyyatı, ortaq tədqiqat əsərlərinin, monoqrafiyaların, elmi məqalələrin hazırlanması, poeziya gecələrinin, müsabiqələrin təşkili, elmi-tədqiqat, ali təhsil ocaqları ilə əlaqələrin genişləndirilməsi, tədqiqat mövzularında Azərbaycan, türk dünyası ədəbiyyatı ilə əlaqədar dissertasiyaların öyrənilməsi və maraqlı mövzuların təşviq edilməsi, nəşrinin həyata keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

Ədəbiyyatçı alimlər görüşün əhəmiyyətini qeyd edərək, gələcəkdə ədəbiyyatımızın aktual problemləri, təbliğat və tədqiqat layihələri, habelə ədəbi əlaqələrimizin genişləndirilməsinə dəstək məqsədilə Azərbaycan Mədəniyyət Mərkəzinin yanında ədəbiyyatçı alimlərdən ibarət ictimai əsaslarla "Ədəbiyyatımızın könüllü tədqiqatçıları və təbliğatçıları" qrupunun yaradılması təklifini səsləndirib.

Qeyd edək ki, görüşdə Türkiyədə Azərbaycan və türk dünyası ədəbiyyatına dair tədqiqatçı alimlər - professorlar İsmet Çetin, Ayşe Yücel, Osman Çeviksoy, Fatma Ahsen Turan, Hayrettin İvgin, Nuray Tamir, Təhminə Bədəlova, Hebibe Yazıcı Ersoy, gənc tədqiqatçılar Batuhan Aydın və Atabey Barış iştirak ediblər.

---

Azərbaycan.- 2025.-17 yanvar (№10).- S.15.